## CHILDREN MUSIC IN AGABAJI RZAYEVA'S CREATIVITY

***Maharramova Sama Bashir***

***Summary***

Children music of Azerbaijani composers has a special place in the development of musical history. In the development of children music, the great composer of Azerbaijan, Agabaji Rzayeva can be specially mentioned. Agabaji Rzayeva's children songs “Kukla (A doll)”, “Shen Yolka (Merry Christmas)”, “Goyerjinim (My Pigeon)”, “Veten (Motherland)” etc. instill in children the feelings of nobility, kindness and patriotism. Agabaji Rzayeva's children music and its characteristic features is considered and analysed in the article.

***Rəyçi: baş müəlllim Həsənova S.***

***GDU-nun “Musiqi fənləri” kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın çıxarışı 02 saylı rpotokolu***

***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT: 781.**

## FORTEPİANO İFAÇILIĞINDA TEXNİKİ MƏŞĞƏLƏLƏRİN MAHİYYƏTİ

***Quliyeva Ülviyyə Elbrus qızı***
***Gəncə Dövlət Universiteti***
***morten.harket85@gmail.com***

**Xülasə*:*** *Məqalədə fortepiano ifaçılığının əsasını təşkil edən texniki məşğələlərin yaranma tarixinə nəzər yetirilmiş, görkəmli bəstəkarların, pianoçu-pedaqoqların təcrübələri əsasında onların mahiyyəti ətraflı işıqlandırılmışdır.*

*Texnika- qamma,akkord və arpecioları, ikili notları, oktavaları və digər ifa növlərini özündə birləşdirən ümumi bir anlayışdır. Müxtəlif üslub və dövr bəstəkarlarının əsərlərinin fakturasının mürəkkəbliyi musiqi fikrinin texniki ifadə vasitəsinin mənimsənilməsini müasir pedaqogikanın aktual məsələlərindən biri kimi təyin edir.*

**Açar sözləri:** fortepiano, qamma, texniki məşğələ, akkord və arpecio

**Ключевые слова:**фортепиано, гамма, технические упражнения, аккорд и арпеджио

**Key words:** piano, gamma, technical exercises, chord and arpeggio

Fortepiano pedaqogikası özünün təkamül prosesində uzun bir inkişaf yolu keçmişdir. XVI-XVII əsr klavir ifaçılarının elmi əsərlərində ifa texnikası, alət arxasında oturmaq qaydası, hərəkətlər,applikatura haqqında mülahizələr izlənilirdilər. Texniki məşğələlər üzərində işin məzmunu və metodikası J.F.Ramonun (1683-1764) “Barmaq texnikası üsulu” (1724) və F.E.Baxın(1714-1788) “Klavirdə ifa etmək sənəti haqqında təcrübə” (1753-1762) adlı risalələrində təsvir edilmişdir.

Elmi araşdırmalar göstərir ki, qədim dövrün klavir pedaqogikasında, klavişli-simli çembalo, klavikord və klavesin kimi alətlərdə ifanın tədrisi zamanı qammaların öyrənilməsi musiqi tərbiyəsinin bir hissəsi kimi qəbul olunurdu. Erkən klavir ifaçılığı dövründə

musiqiçilər ifa zamanı ümumiyyətcə baş barmaqdan istifadə etmirdilər. Buna səbəb o dövrdə musiqi sənətində hökmlük edən musiqi quruluşu və klaviaturanın kiçik ölçüləri idi.

Yalnız 19-cu əsrin əvvəlində qamma fortepiano tədrisinin əsasını təşkil etməyə başlayır.Zaman keçdikcə bizim hal-hazırki dövrdə istifadə etdiyimiz qamma kompleksinin tərkib hissələri və ifa qaydası tədricən formalaşırdı.

Bildiyimiz kimi, qamma - yunan əlifbasının 3-cü hərfinin adıdır. XI əsr italyan musiqiçisi Qvido D`Aretso (992-1050) ardıcıl pilləli səs düzümünü məhz bu cür adlandırmışdır. Yeddi notun adına görə də biz bu dahi şəxsiyyətə borcluyuq. Avropa dillərində, fransız dilindən başqa,"pilləkən", "musiqili pilləkən"," tonların pilləkəni" kimi sözlər də mövcuddur.Görkəmli polyak pianoçusu və ixtiraçısı İosif Hofman (1876-1957) qammanın applikaturasını "musiqinin vurma cədvəli" adlandırırdı [3, s.116].

Zaman keçdikcə texnika inkişaf edir və pianoçuların qarşılarına qoyulan məsələlər ilə bağlı olaraq müxtəlif dəyişikliklərə uğrayırdı. Eyni zamanda onun təsnifatı da dəyişirdi.Görkəmli rus pianoçusu və pedaqoqu H.Neyqauz (1888-1964) fortepiano texnikasının bir neçə növünü ayırd edir:

1. Bir notun götürülməsi.
2. Trel.
3. Qamma.
4. Arpecio.
5. İkili notlar.
6. Akkord texnikası.
7. "Tullanmaqlar və " sıçrayışlar" .
8. Polifoniya.

Dahi macar bəstəkarı, pianoçusu və pedaqoqu F.List( 1811-1886) isə texniki çətinlikləri 4 sinifə bölürdü:

1. Oktava və akkordlar.
2. Tremolo və trellər.
3. İkili notlar.
4. Qamma və arpeciolar.

Qammaların öyrənilməsinə başlamazdan öncə hər şeydən əvvəl, şağirdi major və minor qammalarını eşitməyə, onların hər səsdən ifa etməyin mümkün olduğunu, onları eşitmə vasitəsilə ifa etməyi öyrətmək lazımdır. Tədqiqatçılar haqqlı olaraq qeyd edirlər ki, qammalar üzərində iş mexaniki sürətdə deyil, şüurlu, müntəzəm olaraq aparılmalıdır [1,s.4].

Hal-hazırki dövrdə heç bir pianoçu texniki inkişafının vacib effektli vasitəsi olan qammalar, akkord və arpeciolardan imtina etmir. Qammaların vacibliyi ondadır ki,onlar əsas faktura formaları,pianistik çətinliklərin üzərində işləməyə imkan verir.

Dahi polyak bəstəkarı F.Şopen (1810-1849) hesab edirdi ki, qammaların öyrənilməsinə Mi major qammasından başlamaq lazımdır. Belə ki, qammanın öyrənilməsinə başlayarkən şagird klaviaturanın mərkəzinə uyğunlaşır və klavişlərin kənarlarına düşmür.Uzun barmaqları 4 dildə yerləşdirərkən bilək təbii, əzələlərin sıxılmasını istisna edən sərbəst formanı alır. Onu da qeyd etməliyik ki, H.Neyqauz bu ifa üsulunu "Şopenin düsturu" adlandırırdı [4,s.104 ].

Tanınmış pianoçu-pedaqoqlar T.Leşetitski(1830-1915), V.Safonov(1852-1918) və digərləri qammaları müxtəlif nyuanslarla ifa etməyi tövsiyə edirdilər. Məsələn:

1. Qammanı yuxarı istiqamətdə pianissimodan (pp) başlayaraq kreşendo (crescendo), aşağı istiqamətdə fortedən (f) başlayaraq, pianissimo (pp) edərək ifa etmək.
2. Qammanı sol əldə piano (p), sağ əldə isə forte (f) və əksinə edərək ifa etmək.

3. Daha çətin üsul - qammanı yuxarı istiqamətdə sağ əldə kreşendo (crescendo), sol əldə diminuendo, aşağı istiqamətdə sağ əldə kreşendo, sol əldə isə diminuendo edərək ifa etmək.

Artikulyasiyalı, dinamikli variantlarla yanaşı, qamma üzərində işləyərkən müxtəlif ritmik variantlarla öyrənmək böyük fayda verir. Beləki qamma:

1. Punktir ritm ilə ifa olunur.
2. Aksenti 1-ci və 2-ci səsə edərək duollar ilə ifa olunur.
3. 3 səs tez,3 səs asta ifa olunur və əksinə.
4. 4 səs tez,4 səs asta ifa olunur və əksinə.

Pianoçu texnikası üzərində işin əsasını təkrarlama metodu təşkil edir. Bununla yanaşı,işin aparılmasının keyfiyyətinin səviyyəsi bir sıra şərtlərin yerinə yetirilməsindən asılıdır.Bu şərtlərdən biri material seçimidir. Buraya məşğələ və yaxud əsərlərdə rast gəlinən texniki çətin hissələr, passajlar aid edilə bilər. Çalışmalar ifa üçün kifayət qədər asan və rahat olmalıdırlar. Məşğələlər üzərində iş bütün diqqəti ifanın ritmik tərəfində,düzgün hərəkətlərdə, səsin keyfiyyətində cəmləşdirməyə imkan yaradır.

Musiqi - səsli və fakturalı məsələlərdən asılı olaraq pianoçunun əlləri müxtəlif cür vəziyyətlər alır, yəni, musiqi nə cürdürsə, əl hərəkərləri də o cürdür. Əgər musiqi sakit, yumşaqdırsa, o zaman əllər sakit və yumşaq hərəkət edirlər. Musiqi təntənəli, parlaqdırsa, əllər “ağırlaşmalıdır” və s. Musiqi parçasının bütün elementlərinə fortepiano ifaçılığının müxtəlif üsulları uyğun olur.

Müasir metodika bu məşğələləri pianoçunun inkişafının vacib və effektli üsulu kimi dəyərləndirir. Onlar pianoçu üçün vacib olan texniki ve eşitmə bacarıqlarını aşılayan texniki formaların əsas elementləri hesab olunurlar.

Qeyd etmək lazımdır ki, texniki inkişafın müəyyən prinsiplərini nəzərə alan sistemli, planlı və məqsədyönlü iş prosesi təhsil alanların texniki imkanlarının zənginləşməsinə kömək edir,eşitmənin inkişafına təsir edir,elementar nəzəri bilikləri möhkəmlədir, üzdən oxumaq bacarıqlarını inkişaf etdirir.

Fortepiano ifaçılığında sistematikləşdirilmiş texniki iş böyük əhəmiyyət kəsb edir. Texnika və onun bütün bölmələrinin inkişafı üzərində iş hər gün aparılmalıdır. Texnika-barmaqların cəldliyi, hamarlığı, dəqiqliyidir. Aparılan iş keyfiyyətli və məqsədyönlü olmalıdır.

Beləliklə, musiqi təhsilinin müxtəlif mərhələlərində qammalar, akkord və arpecioların öyrənilməsi təhsil alanların musiqi və texniki inkişafına böyük fayda verməyə qadirdir. Bunların ifası şağirdlərdə ifaçılıq texnikasını inkişaf etdirməklə yanaşı, həmçinin, hər hansı əsərin tonallığının təyin edilməsində, alterasiya işarələrinin mənimsənilməsində çox zəruri olan bir vasitədir.

### ***Ədəbiyyat***

**Azərbaycan dilində:**

1. Qurbanəliyeva S.F. Fortepianoda qamma, akkord və arpecioları çalmaq üçün vəsait. Bakı, 2006, 42 s.
2. Seyidov T. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Bakı, “Təhsil”, 2016, 336 s.

**Rus dilində:**

3. Гофман И. Фортепьянная игра. Ответы на вопросы о фортепьянной игре. Москва, 1961, 152 стр.
4. Нейгауз Г. Об искусстве фортепианной игры. Москва, Музыка, 1987, 240 стр.

**Saytoqrafiya:**

www. musigi-dunya.az
www. musicacademy.edu.az
www. millikitabxana.az

## ЗНАЧЕНИЕ ТЕХНИЧЕСКИХ УПРАЖНЕНИЙ В ФОРТЕПИАННОМ ИСПОЛНИТЕЛЬСТВЕ

***Кулиева Улвийя Эльбрус кызы***

***Резюме***

Техника – это общее понятие, включающее в себя гаммы, аккорды и арпеджио, двойные ноты, октавы и другие виды исполнения. Сложность фактуры произведений композиторов разных эпох и стилей определяет овладение техническими средствами выражения музыкальной мысли как одну из актуальных задач современной педагогики. В статье рассматривается история технических упражнений, лежащих в основе фортепианного исполнительства, подробно раскрывается их сущность на основе опыта выдающихся композиторов, пианистов-педагогов.

## THE IMPORTANCE OF TECHNICAL EXERCISES IN PIANO PERFORMANCE

***Kulieva Ulviya Elbrus***

***Summury***

Technique is a general concept that includes scales, chords and arpeggios, double notes, octaves and other types of performance. The complexity of the texture of the works of composers of different eras and styles determines the mastery of technical means of expressing musical thought as one of the urgent tasks of modern pedagogy. The article discusses the history of technical exercises underlying piano performance, reveals their essence in detail based on the experien ce of outstanding composers, pianists-teachers.

***Rəyçi: baş müəllim Haqverdiyeva N.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli  içlasın02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:78.**

## SOLTAN HACIBƏYOVUN UŞAQ MUSİQİSİ VƏ MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ ONDAN İSTFADƏNİN İMKAN VƏ YOLLARI

***Şabanova Sevil Ağaəli qızı***
***Gəncə Dövlət Universiteti***
***sevashabanova62@gmail.com***

**Xülasə:***Məqalədə görkəmli Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun yaradıcılıgının yeri və uşaqların musiqi tərbiyəsində ondan istifadənin imkan və yolları araşdırılırmışdır.*

*S.Hacıbəyovun yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində özünə məxsus yer tutur. Onun musiqisi melodikliyi və milli koloriti ilə fərqlənir. O, öz yaradıcılığında müxtəlif janrlara müraciət etmiş, musiqili komediya, kantata, mahnı və romanslar, simfoniyalar,*